*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 47-53* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2023.1.47*

***Tənqidi realizm və romantizm epoxası***

# Əhməd Cavad yaradıcılığında tarixi reallıq və mifopoetika
## *(“Kür” şeiri əsasında)*

**Xanım Sultanova**
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Slavyan Universiteti. Azərbaycan.
E-mail: sultanovaxanim@gmail.com

**Annotasiya.** XX əsr Azərbaycan ədəbiyyatı, ictimai, pedaqoji fikrinin görkəmli nümayəndəsi şair, publisist, yazıçı, tərcüməçi, pedaqoq, xalqının istiqlalı uğrunda döyüş meydanlarında həm xeyriyyəçi, həm də müsəlləf əsgər olan Ə.Cavad zəngin yaradıcılığa malik olmuşdur. 1920-ci ildən sonra Şimali Azərbaycanın sovet epoxasına qədəm qoyması, bu epoxada baş verən etnik və siyasi transformasiyalar, xüsusilə Azərbaycan türk xalqının öz milli köklərindən qopardılaraq Azərbaycan sovet xalqına transformasiya edilməsi və s. kimi taleyüklü hadisələr tək Ə.Cavadın deyil, bütövlükdə XX yüzil Azərbaycan ədəbiyyatına təsir etmişdir. Ə.Cavad yaradıcılığı isə çılğın hisslərlə ləyaqətin tərənnümüdür. Dövrünün məlum olduğu kimi, ictimai-siyasi hadisələri bu hissləri açıq-aşkar deyil, sətiraltı deyimlərlə, simvollarla, metaforalarla, mifik işlərlə çatdırmağa vadar edirdi. Ona görə də onun yaradıcılığına mifopoetik kontekstdən yanaşmanı məqsədəuyğun hesab edirik.
**Açar sözlər:** tarixi reallıq, mifopoetika, simvollar, mifoloji obraz, stixiya, su kultu

**Məqalə tarixçəsi:** göndərilib – 05.02.2023; qəbul edilib – 20.02.2023

# Historical reality and mythopoetics in the creativity of Ahmad Javad
## *(on the basis of “Kur”poem)*

**Khanim Sultanova**
Doctor of Philosophy in Philology
Baku Slavic University. Azerbaijan.
E-mail: sultanovaxanim@gmail.com

**Abstract.** A prominent representative of 20th century Azerbaijani literature and social-pedagogical conception, poet, publicist, writer, translator, pedagogue, literary scholar, scholar, philanthropist and dedicated soldier on the battlefields for the independence of his nation, A.Javad had rich creativity. Entry of Northern Azerbaijan into the Soviet epoch after 1920, the ethnic and political transformations that took place in this era, especially efforts to break the Azerbaijani Turkish people from their national roots and turn them into the Azerbaijani Soviet people and other fateful events affected not only A.Javad, but also the entire XX century Azerbaijani literature. A.Javad's creativity is a praise of dignity with crazy feelings. As was known in his time, socio-political events made him convey these feelings not overtly, but with underline sayings,

symbols, metaphors, and mythical works. Therefore, we consider it appropriate to approach his work from a mythopoetic context.
**Keywords:** historical reality, mythopoetics, symbols, mythological image, element, water cult

**Article history:** received – 05.02.2023; accepted − 20.02.2023

## Giriş / *Introduction*

XX əsr Azərbaycan ədəbiyyatı, ictimai, pedaqoji fikrinin görkəmli nümayəndəsi şair publisist, yazıçı, tərcüməçi, pedaqoq ədəbiyyatşünas alim, xalqının istiqlalı uğrunda döyüş meydanlarında həm xeyriyyəçi, həm də müsəlləf əsgər olan Ə.Cavad zəngin yaradıcılığa malik olmuşdur. Vətən sevdalısı olan bu mübariz şəxsiyyət fəaliyyət göstərdiyi ilk gündən ömrünün sonuna kimi Azərbaycanın müstəqilliyi, bayrağı, dili uğrunda sözün həqiqi mənasında vuruşmuşdur. Professor Yaşar Qarayevin təbirincə desək: "İntibah" deyəndə ilkin xatırlanan Nizami olur. "Məhəbbət" deyiləndə birinci Füzulinin adı çəkilir. "Cümhuriyyət" deyəndə yada hamıdan əvvəl Ə.Cavad düşür... Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur" [3, s.4].

## Əsas hissə / *Main part*

Ə.Cavad yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında dəfələrlə tədqiqata cəlb olunmuşdur. Akademik Bəkir Nəbiyev, akademik İsa Həbibbəyli, professor Yaşar Qarayev, professor Bədirxan Əhmədov, professor Asif Rüstəmli, professor Əli Saləddin, professor Tahirə Məmməd, Qafar Hüseynov, Günay Qarayeva və s. kimi alimlər Ə.Cavad irsinin öyrənilməsi istiqamətində dəyərli əsərlər yazmışlar. Xüsusilə bu irsə 2022-ci ildə şairin 130 illik yubileyi dövründə alimlər tərəfindən müraciət daha geniş vüsət almışdır.

Bayrağa 6 nəğmə yazan şairin poeziya dünyasında üçrəngi onun milli tarixi, fəlsəfə və mənəviyyatı ilə bağlı idi. Bayrağının başı üstündə əsən qara buludları qovmağa, rəngini soldurmaq istəyən yağışa, qara sipər olmaq istəmişdi, özünün də qeyd etdiyi kimi "talan olan diyarın ac övladı olsa da məhkumluğa, hakimliyə qarşı susmamışdır":

*Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam,*
*Zülmə qarşı amansızam, əzilsəm də susmaram. [8]*

Ə.Cavad yaradıcılığı çılğın hisslərlə ləyaqətin tərənnümüdür. Dövrünün məlum olduğu kimi, ictimai-siyasi hadisələri bu hissləri açıq-aşkar deyil, sətiraltı deyimlərlə, simvollarla, metaforalarla, mifik işarələrlə çatdırmağa vadar edirdi. 1920-ci ildən sonra Şimali Azərbaycanın sovet epoxasına qədəm qoyması, xüsusilə Azərbaycan-Türk xalqının öz milli köklərindən qopardılaraq Azərbaycan sovet dövrünə qədəm qoyması, bu dövrdə baş verən etnik və siyasi transformasiyalar, xüsusilə Azərbaycan türk xalqının öz milli köklərindən qopardılaraq Azərbaycan sovet xalqına transformasiya edilməsi və s. taleyüklü hadisələr tək Ə.Cavadın deyil, bütövlükdə XX yüzil Azərbaycan ədəbiyyatına təsir etmişdir. Ə.Cavad isə Turançılıq, türkçülük ideyalarının nəğməkarı idi. Lakin bu ideyaların çatdırılmasında şairin hər misrasından boylanan milli kimliyin təqdimatında mifoloji görüşlərin, simvolik işarələrin böyük rolu olmuşdur. Professor Bədirxan Əhmədovun da qeyd etdiyi kimi "Ümumiyyətlə, Ə.Cavad Azərbaycan poeziyasına yeni üslub, yeni poetik düşüncə gətirməklə yanaşı, həm də milli, mənəvi dəyərləri, vətənçilik, turançılıq məfhumlarını tərənnüm edir, türk ruhunun ölməzliyini vəsf edirdi. Bütün bunlara görə Ə.Cavadı cümhuriyyət şairi, azadlıq, istiqlal nəğməkarı adlandırmaq mümkündür" [4, s.136]. Böyük Azərbaycan şairi Ə.Cavadın yaradıcılığında mifoloji obrazlar-simvolik arxetiplər mətnin ifadə və təsvir planında özünü göstərməkdədir. Çünki onun şeirinin estetik enerjisi çox dərinlərdən, milli düşüncənin mifik

qaynaqlarından, ən əsası milli kimlikdən gəlir. Professor Tahirə Məmmədin qeyd etdiyi kimi "İstər fərdin, istərsə də hər hansı cəmiyyətin, xalqın, millətin özünü tanıtmasında ünsiyyət vasitələri önəmli rol oynayır. Bu mənada, ədəbiyyatın müstəsna yeri var; insanların özlərinin gedə bilmədiyi yerlərə belə ədəbiyyat, sənət gedir və onu yaradanın fərd olaraq özü, mənsub olduğu cəmiyyət, millət, dövlət haqqında müəyyən təsəvvür formalaşdırır" [5, s.12].

Şairin şeirlərində milli düşüncənin mifik qaynaqları olan kultlara, stixiyalara, mifik obrazlara, süjetlərə geniş yer verilmişdir. Torpaq kultu ilə əlaqədar olan Vətən anlayışı ətrafında azadlıq, adət-ənənələr, bütövlük, tale və gələcək durum cərəyan edir. Şairin qəlbinin, ruhunun istəyindən doğan poetik düşüncəsi mifopoetik lövhələrlə tərənnüm olunur. Qeyd olunanları təsdiq etmək üçün Ə.Cavadın bütün yaradıcılığına deyil, yazdığı bir şeirinə müraciət etmək kifayətdir. Bu baxımdan onun "Kür" şeirini tədqiqata cəlb etməyi məqsədəuyğun hesab etdik. Professor Yaşar Qarayevin qeyd etdiyi kimi, şeirin dəli kürü Əhməd Cavadın həm özü, həm də poeziyası idi [3, s.8]. Doğrudan da, Ə.Cavad poeziyası Kürün əhatə etdiyi üfüqlərdən keçir və sahillərdən axır. Burada insan/təbiət eyniləşdirilməsinin poetik dərinlikləri aydın şəkildə özünü göstərir. Bu isə kök etibarı ilə birbaşa Azərbaycan-türk mifik təfəkkürü ilə qaynaqlaşır. Türk mifologiyasının obrazları onun poetik yaddaşından ayrılmır. Dilimizin və ruhumuzun birbaşa mənsub olduğu ümumtürk mifoloji inanclar çərçivəsində düşüncənin süzülüb gəldiyi dərinliklərə işıq salır. Həmin dərinliklərdə yalnız şeirdə reallaşan, təzahür edən hadisələr, adlar, tarix deyil, həmin şeiri yaradan insan-şair şəxsiyyəti kəşf edilir.

Bildiyimiz kimi su-torpaq, od, hava ilə bərabər dünyanın yaradılmasının əsas stixiyalarındandır. Görkəmli alim M.Seyidovun qeyd etdiyi kimi "Çay-su ilk başlanğıc, həyat verənlərin ilkindən sayılmışdır" [6, s.46]. O, birbaşa kosmoqoniyaya xidmət edir. Şeirdə Kür obrazı ilə bağlı işlənmiş bütün elementlər mifopoetik xarakterlidir və öz kökü etibarilə su kultuna bağlıdır. Yuxarıda qeyd etdiyimiz kimi Ə.Cavad "Kür" şeirində yalnız bir şair kimi deyil, həm də tarixi hadisələri həssas duyğularla şərh edən bir vətəndaş-tarixçi, vətəndaş-hakim, ittihamçı, vəkil, vətəndaş-siyasətçi kimi çıxış edir. Şeir coğrafiya və tarix, məkanla zaman anlayışlarının vəhdətidir. Bir xalqın, bir millətin, bir torpağın başına gələn tarixi həqiqətləri Kür çayında və onun sahillərində, yəni torpaq və su kultları üzərində təqdim edir:

*Dünyanın ilk çağından,*
*Ərdahanın dağından*
*Əski bürcün sağından*
*Çıxıb keçən, axan Kür! [3, s.234]*

Göründüyü kimi, müəllif dünyanın ilk çağından şeirin yazılma tarixinə qədər (1930) tarixi hadisələrə toxunur. Kürü burada bədii obraz kimi götürərək öz içinin ağrılarını ifadə edir. Şeirin hər misrasında mənəvi qatlara siraət edən isıq görünür. Əslində şair bu əsərdə Kür obrazının şahidi olduğu yolların tarixini göstərə-göstərə bizi ruhumuzun, mənəviyyatımızın keşməkeşli anlarına aparır. Bu tək Kürün antropomorflaşdırılması (yəni insaniləşdirilməsi) deyil, həm də şair məninin çayla eyniləşdirilməsi hadisəsidir. Görkəmli türk şairi Nəcib Fazil Qısakürəyin Sakaryaya həsr etdiyi şeirdə olduğu kimi Ə.Cavad da olub keçənlərə laqeyd yanaşan çayla bərabər şahidlik edir. N.F.Qısakürək yazır:

*İnsan bu, su misalı, kıvrım kıvrım akar ya;*
*Bir yanda akan benim, öbür yanda Sakarya.*
*Su inər yokuşlardan, həp basamak basamak;*
*Benimsə alın yazım, yokuşlarda susamak.*
*Her şey akar, su, tarih, yıldız, insan ve fikir;*
*Oluklar çift; birinden nur akar; birinden kir. [9]*

Ə.Cavad da “Kür” şeirində çayla bərabər axıb böyük bir xalqın taleyini göz önündə canlandırır. “Sinəsi dolu xəzinəni heç bir kəsə verməyən Kürü” belə vəsf edir:

*Yaxşı yadında qalmış,*
*Kim öldü, kim dirildi?*
*Hər gələn qanlı dinə*
*Nə qurbanlar verildi?*
*Lakin sən heç bir zaman,*
*Qalmadın axışından.*
*Heç bir şey duyulmadı*
*Dalğasız baxışından*
*İnsanın ömrü kimi,*
*Axıb getdim dənizə*
*Nə düşmənə “çor” dedin,*
*Nə “can” söylədin bizə . [3, s.238]*

Müəllif tarixi hadisələrin covlan etdiyi məkanların adlarını, toponimləri zərgər dəqiqliyi ilə qeyd edir. Beş vilayət boyunu əhatə edən “Alagöz”dən, “Ağbaba”dan, “Alazan”dan, Ceyran çölündəm, “Qaraoğlan” düzündən, Mildən, Muğandan söhbət açır. Qeyd etdiyimiz kimi şeirin hər misrasında tarixin izi var. Ta qədimdən Hinddən, Misirdən gələn karvanlar, Nil çayından, Fəratdan axıb gələn ordular, Nüylərindən bənd almış Keçaratdan qaçanlar, Midiyanın taleyi, Makedoniyalı İsgəndərin yürüşü, Ərəb qeysərləri, Ceyran ovuna çıxan Türkmənlər, gah çar, gah şah və s. dilə gətirilir. Sanki əsər nəzmə gətirilmiş Azərbaycanın bir hissəsinin tarixi salnaməsidir. Şair bütün tarixi hadisələrə biganə yanaşıb öz axarında olan Kürə keçmişdə baş verənlərin təkrarlanmaması üçün təvəqqe də edir. Bu baxımdan aşağıdakı misralar maraq doğurur. Öz vətənindən başqa xüsusi sevgisi hiss olunan digər bir məkanın adını çəkərək deyir:

*Get sallana-sallana,*
*Suyunda çimsin sona,*
*Girmə Tiflisdə qana,*
*Nə bir ləkə, nə qan, Kür! [3, s.235]*

Əlbəttə ki, Tiflis şəhəri Ə.Cavadın həyatında önəmli yer tutan məkan olmuşdur. Siyasi fəaliyyəti, xeyriyyəçilik könüllülük istiqamətində gördüyü işlər, xüsusilə də sevgi macərası məhz bu şəhərlə bağlı idi. Lakin ehtimal edirik ki, “girmə Tiflisdə qana” ifadəsi isə, dəqiq qeyd edə bilməsək də, XII-XIII əsrlərdə həmin ərazilərdə baş vermiş tarixi hadisələrlə əlaqəli olan qan davalarına etiraz əlaməti idi. Şair tarixin səhifələrinə qanla yazılmış məqamlara böyük ustalıqla eyham vurur:

*Hər cahangir bir dəfə,*
*Dırmandı Qaf dağına.*
*Bir çoxları qurşandı,*
*Simurğun sorağına.*
*Sən gördün at döşündə*
*Aylar, yıldızlar getdi.*
*Şirvanın bazarından*
*Nə gözəl qızlar getdi.*
*Yaxşı yadında qalmış,*
*Kim öldü, kim dirildi? [3, s.234]*

Şeirdə mifoloji obraz olan Qaf dağına və Simurq quşuna bir neçə dəfə müraciət olunmuşdur. Mifoloji baxışlardan gələn Qaf dağı, Simurq quşu cinlərin məkanı olan “azğın quyular”, “tilsimli diyar”, “dövlət quşu” mifologemlərinin şeirdə əks olunması və mənalandırılması üçün bu obrazların mifik ənənədəki roluna nəzər salmaq kifayətdir. Bu obrazların hər biri haqqında bir çox türk mənbələrində [1], C.Bəydilinin “Türk mifoloji sözlüyü”ndə, [2] A.Acalovun araşdırmalarında və s. ətraflı məlumat verilib. Real həqiqətləri tərənnüm edən əsərdə mif bizə yuxarıda göstərilən obrazlar vasitəsi ilə özünün kod, sxem, məlumat səviyyələrini üzə çıxarmağa şərait yaradır.

Qeyd etdiyimiz kimi əsərdə hadisələr deyil, həm də şair “məni”, şəxsiyyəti üzə çıxır. Bu baxımdan şeirdə şair şəxsiyyətinin dual funksiyası müşahidə olunur. Birinci halda Kür sahilində baş verən tarixi şərh edən, Kürün laqeyd baxışına, möhtəşəmliyinə və hadisələrə münasibət bildirən lirik qəhrəman, ikinci halda isə “proletar ədəbiyyatı qatarı”na məcburən qoşulmaq istəyən bir insan ruhunun acısını duyuruq. Biri-birinə əks münasibətləri izləyirik. Sənətkar bir şeirin içində baş verən hadisələrə zaman və dünya arasındakı məsafənin fövqündən baxır və onun düşüncələrində əvvəlcə real keçmişin təsviri oxuculara verilirsə qəflətən bu günün tələbatı yada düşür. Şair şeirin bu məqamında sanki ruhi ayrılıq müstəvisində görünür. Dağları, daşları, diyarları özünə tabe edən qorxu bilməyən Kür yeni rejim, yeni insan qarşısında acizləşir. Şairin cəmiyyətə göstərmək istədiyi yeni insanın müraciəti əslində dəyişən mühtilərin elə cəmiyyətin özünə replikasıdır:

*Kür!*
*Ey dəli Kür!*
*İşvəli Kür!*
*Artıq topla özünü,*
*Gəl qısa kəs sözünü.*
*Görmədinmi nədir sən*
*Devirdiyim tacları?*
*Bu sərkəş təbiətdən*
*Topladığım bacıları? [3, s.238]*

Artıq “Yeni həyat quran, dövranın gedişindən, qorxunu qaldıran, “Məndədir qüvvət” deyən, “Əzilmiş insanların ümidi olan, tək Kürü deyil, dənizləri boğan” böyük bir güc sahibi olan yeni insan təqdim olunur:

*Möcüzələr yaradır*
*Alnımdakı qan-tərim,*
*Dünyanın hər yerində*
*Söylənməkdə hünərim.*
*Mən tərənnüm etdiyim*
*Əmək qəsidəsindən,*
*İdrak ilə vurduğum*
*Çəkicimin səsindən;*
*Çatlayır divarları*
*Qaranlıq zindanların;*
*Mənədir hər ümidi*
*Əzilmiş insanların!*
*Mən yıxdım, mən devirdim,*
*Mən aldım gücdən qisas! [3, s.240]*

Bu yeni insan tipinin timsalında “ədəbiyyata “oraq”, “çəkic” kimi yeni simvolik obrazlar daxil olur”. Fövqəlüstünlüyə malik “Turan”, “Bayraq” və s. dominant obrazlar hər yerdə olduğu kimi burada da sıxışdırılır [7, s.174-181]. Lakin şair öz dərdini, nisgilini nə qədər “sehrli çubuğun”

toxunuşu ilə gizlətmək istəsə də o tilsim qəlbində olan Türkçülük sevdasını məhv edə bilmir. Yeni insan obrazının istəklərindən söz açdığı məqamda qeyri-ixtiyarı “qüvvətli nəşəli türk”dən söz salır:

*Nə qorxum, nə də ürküm*
*Yoxdur çaydan, dənizdən;*
*Mənim nəşəli türküm*
*Qorxmaz dumandan, sisdən. [3, s.239]*

Göründüyü kimi, yeni insan tipini yaratmaq cəhdi Ə.Cavad şəxsiyyətində heç də uğurlu alınmır. Ruhu, canı, varlığı ilə doğma ideyasına bağlı olan Ə.Cavadın yaradıcılığını tədqiq edərkən onu keçmişindən qoparmaq mümkün olmur. Araşdırıcıların fikrincə Cumhuriyyət dövründən sonra “Ədəbi prosesin özünün strukturu da o qədər sadə deyildi. Köhnə-yeni təfəkkür arasında gedən gərgin mübarizə ədəbi prosesə öz təsirini göstərirdi” [4, s.246-247]. Köhnə-yeni təfəkkür arasında gedən mübarizədə Ə.Cavad kimi şairlər öz əqidələrindən ayrıla bilmirdilər. Ona görə də Ə.Cavadı bir şair kimi araşdırarkən onun öz obrazını keçmişdən ayırmaq mümkün olmur. O, yeni gələn dövrana pərdələnərək əyilir, lakin fikirlərində heç cür “sovetləşə” bilmir. “Kür şeirinin axırıncı bəndin”də də həm Kürə, həm də özünə xitab etdiyi misralarında məhz həmin anlarda yaşadığı psixoloji durumunu ifadə edirdi:

*Dolaşıb dağı, daşı*
*Qatırım ol, yük daşı.*
*Əyil Kürüm, əyil, keç!*
*Meydan sənin deyil, keç! [3, s.241]*

## Nəticə / *Conclusion*

Beləliklə, Ə.Cavad yaradıcılığında tək bir şeirə müraciət etməklə Azərbaycan tarixinin, coğrafiyasının real hadisələrlə təsvirini və açıq, gizli şərh etdiyi mifopoetik lövhələri müşahidə etdik. Belə bir qənaətə gəldik ki, Cümhuriyyətin süqutundan sonra Ə.Cavad şeirinin ovqatı dəyişsə də şair şəxsiyyətinin məğrurluğu söz pərdəsində belə dəyişməz oldu. Ona görə də dövrünün bir çox yazarları kimi “qırmızı terror”un hədəfinə çevrildi.

## Ədəbiyyat / *References*


1. Acalov, A. Azərbaycan mifoloji mətnləri. – Bakı: Elm, 1988.
2. Bəydili (Məmmədov), C. Türk mifoloji sözlüyü. – Bakı: Elm, 2003.
3. Cavad, Ə. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005.
4. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı. – Bakı: Elm və təhsil, 2015.
5. Məmməd, T. Milli kimlik və bədii mətn. – Bakı: Elm və təhsil, 2020.
6. Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən. – Bakı: Yazıçı, 1989.
7. Sultanova, X. Azərbaycan poeziyasında Bozqurd inancı. – Bakı: Mütərcim, 2021.
8. https://portal.azertag.az/az/node/18009
9. https://www.siir.gen.tr/siir/n/necip_fazil_kisakurek/sakarya_turkusu.htm

# Историческая реальность и мифопоэтика в творчестве Ахмада Джавада *(на основе поэмы “Кур”)*

**Ханум Султанова**
Доктор философии по филологии
Бакинский государственный университет. Азербайджан.
E-mail: sultanovaxanim@gmail.com

**Резюме.** Видный представитель азербайджанской литературы и общественно-педагогической мысли XX века, поэт, публицист, писатель, переводчик, педагог, ученый-литературовед, меценат и самоотверженный борец за независимость своего народа А.Джавад обладал богатейшим творческим потенциалом.

После 1920 года Северный Азербайджан вступил в советскую эпоху. Этнические и политические преобразования, происходившие в эту эпоху, особенно попытки оторвать азербайджанский народ от своих национальных и тюркских корней, превращение его в азербайджанский советский народ и прочие судьбоносные события коснулись не только А.Джавада, но и всей азербайджанской литературы XX века. Творчество А.Джавада – это торжество достоинства с высокими патриотическими чувствами.

Как известно, общественно-политические события того времени заставляли его передавать эти чувства не открыто, а скрыто, имплицитно - символами, метафорами, мифологическими сюжетами и понятиями. Поэтому мы считаем целесообразным, подходить к изучению его творчества с точки зрения мифопоэтического контекста.

**Ключевые слова:** Историческая реальность, мифопоетика, симболы, мифологические образы, стихия, культ воды